UOT 32
https://doi.org/10.59849/2710-0820.2024.2.170

**Aynur Kərimli**
*AMEA Qafqazşünaslıq İnstitutunun*
*Qafqaz ölkələrinin beynəlxalq əlaqələri şöbəsinin elmi işçisi*
*Azərbaycan*
*aynurkarimli0@gmail.com*

# AZƏRBAYCAN RESPUBLİKASI VƏ İSRAİL DÖVLƏTİ ARASINDA ƏLAQƏLƏR İQTİSADİ KONTEKSTDƏ

***Açar sözlər:*** *Azərbaycan, İsrail, ticarət dövriyyəsi, neft, səfər*

1991-ci il 18 oktyabr tarixində Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən qısa müddət sonra İsrail Dövləti 25 dekabr 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı. 7 aprel 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulması ilə qarşılıqlı faydalı iqtisadi-siyasi əməkdaşlığın əsası qoyuldu. Təbii ki, iki dövlətin qarşılıqlı faydalı əməkdaşlığını sadəcə iqtisadi-siyasi amillərlə səciyyələndirmək düzgün olmazdı, bu əməkdaşlıq, tarixən mövcud olmuşdur. İkitərəfli münasibətlərin inkişafında dövlət və hökumət başçılarının qarşılıqlı rəsmi və işgüzar səfərlərinin həyata keçirilməsi müstəsna əhəmiyyət malikdir.

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik mənafelərinin qorunmasında ölkənin zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi mühüm əhəmiyyət kəsb edir. Bu amillər Azərbaycanın milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi üçün ilkin əlverişli zəmin yaradır. Lakin mövcud ilkin potensialı və əlverişli zəmini reallaşdırmaq, onlardan maksimum bəhrələnmək beynəlxalq aləmdə cərəyan edən proseslərin ciddi araşdırılmasını, Azərbaycanın maraqlarına uyğun düşünülmüş, hərtərəfli əsaslandırılmış və bütün incəlikləri nəzərə alan addımların atılmasını tələb edirdi. Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir. 1991-ci ilin sonu-1992-ci ildə Azərbaycanın dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması və diplomatik münasibətlərin yaradılması onun dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açdı. İkitərəfli siyasi münasibətlərin qurulması iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaradırdı [2]. Azərbaycanın əlverişli geosiyasi mövqeyə və zəngin təbii resurslara malik olması müxtəlif sahələrdə dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərin qurulmasında mühüm rol oynayır.

Azərbaycan-İsrail ikitərəfli əlaqələri qarşılıqlı maraqlara söykənir. Belə ki, İsrail Dövləti enerji tələbatına olan ehtiyacının böyük hissəsini bu sahədə zəngin resurslara malik olan Azərbaycanla əlaqələrini inkişaf etdirməklə qarşılayır. Azərbaycan isə öz növbəsində dünyanın ən yüksək texnologiyasına malik dövlətlərindən biri olan İsraillə texnologiya, sahəsində əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsində maraqlıdır. Hələ 44 günlük Vətən müharibəsindən əvvəl, 2016-cı ildə Azərbaycanın İsraildən aldığı hərbi texnikanın dəyərinin 4 milyard 850 milyon dollar olması hərbi texnologiya sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu göstərirdi.

Dərin tarixi-mədəni köklərə malik olan iki dövlət arasında iqtisadi və siyasi əlaqələrin genişlənməsində dövlət və hökumət başçılarının müxtəlif vaxtlarda baş tutan qarşılıqlı rəsmi və işgüzar səfərlərinin xüsusi tarixi əhəmiyyəti vardır. Belə ki, 1992-ci il aprelin 5-7-də İsrail nümayəndə heyətinin Azərbaycana səfəri zamanı iki ölkə arasında diplomatik münasibətlərin

qurulması əlaqələrin inkişafında əsaslı rol oynadı. 1993-cü ilin payızında İsrail Bakıda öz səfirliyini açdı. Bundan sonra əlaqələrdə canlanma yarandı. Dekabr ayında İsrail knesetinin üzvləri Bakıya səfər etdilər. Səfər zamanı iki ölkə arasında əməkdaşlığın geniş sahələri müzakirə edildi. 1991-ci ildən Bakıda «Azərbaycan-İsrail» cəmiyyəti fəaliyyətə başladı. Cəmiyyətin özəyini iki xalqın qabaqcıl ziyalıları təşkil edirdilər. Cəmiyyətin məqsəd və vəzifələri Azərbaycanı və İsraili elm, mədəniyyət, iqtisadiyyat və başqa sahələrdə yaxınlaşdırmaq idi. «Azərbaycan-İsrail» cəmiyyəti dövlət və hökumət səviyyəsində münasibətlərin inkişafına da kömək edirdi. [9, s.114-115]. Həyata keçirilən bu qarşılıqlı səfərlər və fəaliyyətlər iki dövlətin iqtisadi əlaqələrinin gələcəkdə yüksək səviyyədə olacağından xəbər verirdi.

İki ölkə arasında münasibətlərin inkişafına təkan verən əsas görüşlərdən biri 1993-cü ilin dekabrın 30-da olmuşdur. Respublika Prezidenti Heydər Əliyev İsrailin ən iri firmalarından birinin - "Merxav" şirkətinin Bakıda işgüzar səfərdə olan rəhbərlərini, onun prezidenti İosif Maymanı və vitse-prezidenti Dan Kavı qəbul etmişdir. Azərbaycan Prezidenti qonaqları səmimi salamlayaraq qeyd etmişdir ki, o, firmanın fəaliyyətinə və onun keçmiş SSRİ respublikaları ilə əməkdaşlıq planlarına bələddir və bu niyyətləri bəyənir. O demişdir: Azərbaycan bütün ölkələrlə və şirkətlərlə iqtisadi əməkdaşlıq üçün açıqdır. Bu cür əməkdaşlıq sənaye və kənd təsərrüfatı sahəsində qarşılıqlı surətdə faydalı əlaqələrə kömək etməklə yanaşı, xalqların qarşılıqlı anlaşmasının daha da artmasına, Azər-baycan ilə İsrail arasında münasibətlərin inkişafına təkan verir. İosif Mayman onları Bakıya gəldikdən sonra tezliklə qəbul etdiyinə görə Prezidentə təşəkkürünü bildirərək demişdir ki, firmanın rəhbərləri Azərbaycana onunla əməkdaşlıq etmək arzusu ilə təşrif gətirmişlər. O, quruculuq prosesində olan gənc müstəqil Azərbaycan dövlətinin düşdüyü vəziyyəti aydın dərk etdiyini söyləyərək, Heydər Əliyevin müstəqil dövlət quruculuğunda xüsusi xidmətini, onun yüksək beynəlxalq nüfuza malik olduğunu qeyd etmişdir. Qonaq öz şirkətinin fəaliyyəti barədə məlumat verərək demişdir ki, onun şirkəti 26 ölkədə fəal işləyir və illik dövriyyəsi təxminən 1 milyard dollardır. "Merxav" kənd təsərrüfatı məhsulları istehsalı sahəsində ixtisaslaşır və bu sahədə İsrail dövlətində ən böyük şirkətdir. O, Qazaxıstanla əməkdaşlığın gedişində bir sıra kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının yüksəldilməsində əldə olunmuş nailiyyətlərdən, Özbəkistan və Türkmənistanın aqrar bölmələri ilə əlaqələrinin inkişaf etdirilməsindən danışmışdır. Firmanın prezidenti demişdir: Biz ümidvarıq ki, Azərbaycanda da etibarlı ortaqlar tapacağıq. Heydər Əliyev qonağın söylədiyi fikrə tərəfdar çıxaraq və onu davam etdirərək tanınmış israilli biznesmenin bu təklifindən razı qaldığını söyləmiş və bildirmişdir ki, Azərbaycan "Merxav" şirkəti ilə əməkdaşlığa günü bu gün hazırdır. Bu əməkdaşlıq Orta Asiya dövlətlərində israillilərin həyata keçirdikləri birgə layihələr kimi, respublikamızda da eyni dərəcədə səmərəli və qarşılıqlı surətdə faydalı ola bilər. Dedi: Biz də pambıq, pomidor, hil əkirik. Ona görə də Azərbaycan özünün qabaqcıl texnologiyaları ilə məşhur olan bu şirkətlə əməkdaşlıqda çox maraqlıdır. Əminəm ki, bu qayğılar respublikamızda özünü təmin edən məhsulların məhsuldarlığının artırılmasına kömək edəcəkdir [1]. Əsas məqsədi Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə investisiya qoymaq olan bu səfər zəngin iqtisadi potensiala və bazar iqtisadiyyatına malik olan dövlətimiz üçün xüsusi əhəmiyyətli olmuş və növbəti illərdə əlaqələrin genişlənməsinə gətirib çıxarmışdır.

28 yanvar 1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İsveçrədə keçirilən Dünya İqtisadi Forumunda İsrailin Xarici İşlər Naziri Şimon Pereslə, elə həmin il oktyabrın 22-də BMT Baş Məclisinin iclasında İsrailin Baş Naziri İshaq Rabinlə, 11 yanvar 1996-cı ildə Fransanın keçmiş prezidenti Fransua Mitteranın dəfn mərasimində İsrailin Baş Naziri olan Şimon Pereslə, 2 dekabr 1996-cı ildə isə ATƏT-in dövlət başçılarının Lissabonda toplantısı çərçivəsində İsrailin Baş Naziri Benyamin Netanyahu ilə görüşüb, qarşılıqlı maraq doğuran məsələləri müzakirə edib. 29 avqust 1997-ci ildə İsrailin Baş naziri Benyamin Netanyahu Azərbaycana qısamüddətli səfər edib və Prezident Heydər Əliyevlə görüşüb. Heydər Əliyev ATƏT-in Lissabon zirvə toplantısında Natenyahu ilə görüş və danışıqlarından, həmçinin onun İsrail hökuməti adından Azərbaycanın qarşılaşdığı problemlərin aradan qaldırılmasın-

da lazımı köməklik göstərməyə hazır olduğu barədə bəyanatından məmnun qaldığını bildirib. Görüşdə iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qrupunun yaradılması qərara alınıb. Azərbaycanın sülhsevər və çoxmillətli ölkə olduğunu qeyd edən Heydər Əliyev yəhudilərin əsrlər boyu burada azərbaycanlılarla dost və mehribancasına yaşadığını bildirib: "Yəhudilər azərbaycanlılarla birlikdə Azərbaycanda əsrlər boyu dostluq, mehribanlıq şəraitində yaşayıblar. Bu gün də yəhudilər Azərbaycanın tam bərabər hüquqlara malik vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir. Bunların hamısı bizim əməkdaşlığımız üçün yaxşı imkan yaradır" [5]. 29 avqust 1997-ci ildə İsarilin baş naziri Benyamin Netanyahunun Azərbaycana qısamüddətli səfəri və prezident Heydər Əliyevlə görüşü Azərbaycan – İsrail əlaqələrinin inkişaf tarixinin əsasını qoydu [9]. Xüsusi tarixi əhəmiyyətli olan bu səfər və görüşlər iki dövlətin daha da yaxınlaşmasına və əməkdaşlıqda yeni imkanların yaranmasına gətirib çıxardı.

1997-ci ildə İsrail Xarici İşlər Nazirliyinin MAŞAV xətti ilə İsraildə kənd təsərrüfatı, tibb, təhsil və kompüter texnologiyası kimi müxtəlif sahələrdə təşkil etdiyi kurslarda Azərbaycan nümayəndələri də iştirak etdilər [8, s.343 ]. Təbii ki, bu kurslarda iştirak  Azərbaycanın texnologiyaya önəm verdiyinin və İsrailin bu sahədə təcrübəsini Azərbaycanla paylaşmaq istədiyinin göstəricilərindən biridir.

Prezident Heydər Əliyev 18 noyabr 1999-cu ildə Türkiyədə ATƏT-in sammitində İsrailin Baş Naziri Ehud Barakla görüşüb. İki ölkə arasında yaranmış münasibətlərdən bəhs edən Azərbaycan Prezidenti bildirib: "Xaricdə yaşayan yəhudilərin nümayəndələri tez-tez ölkəmizi ziyarət edirlər. Ölkələrimiz arasında əlaqələrin daim inkişaf etməsi üçün geniş imkanlar vardır. Bu münasibətlərin daha da genişləndirilməsi olduqca zəruridir." 2000-ci il 6 sentyabr tarixində Prezident Heydər Əliyev ABŞ-da olarkən İsrailin Baş naziri Ehud Barakla yenidən görüşüb [5]. 1995-2000-ci illərdə həyata keçirilən bu vacib görüşlər bir daha iki dövlətin də qarşılıqlı faydalı əməkdaşlıqda nə dərəcə maraqlı olduğunu göstərdi.

2000-ci il aprelin 10-13-də İsrail Dövləti Xarici İşlər Nazirliyinin iqtisadi məsələlər üzrə baş direktorunun müavini Viktor Harelin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda səfərdə oldu. Nümayəndə  heyəti Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən qəbul edildi. Görüşdə hər iki tərəf üçün əhəmiyyət kəsb edən məsələlər, o cümlədən Azərbaycanda iqtisadi şərait, İsrail sərmayələrinin Azərbaycan iqtisadiyyatına cəlb olunması və s. məsələlər müzakirə olundu. Aprelin 12-də nümayəndə heyətini Ulu Öndər Heydər Əliyev, Baş nazir və Xarici işlər naziri qəbul etdi. Görüşlərdə Azərbaycan-İsrail əlaqələrinin bütün sahələrdə inkişaf etdirilməsi və onların yüksək səviyyəyə çıxarılmasının zəruriliyi, İsrail tərəfindən Azərbaycana sərmayələrin qoyulması məsələləri müzakirə olundu. Tərəflər Azərbaycan iqtisadiyyatına İsrail kapitalının qoyulması barədə razılığa gəldilər. Bütün bunlar əməkdaşlıqda yeni imkanlar açırdı [8, s.346-347]. İkitərəfli münasibətlərin inkişafında qarşılıqlı faydalı olan bu görüşlər növbəti illərdə də uğurla davam etdirilmiş və genişləndirilmişdir.

İki ölkə arasında münasibətlərin inkişafına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də diqqətlə yanaşır. Onun İsrail dövlət başçıları ilə bir sıra görüşləri olub. Bu görüşlərdən biri 2006-cı ilin iyun ayında Astanada (Ş. Peres o zaman İsrail Baş Nazirinin müavini idi)həyat keçirilmişdir. 2007-ci ilin fevralında iki ölkə arasında ilk iqtisadi sənəd olan İnvestisiyaların Qorunması və Təşviqi haqqında razılaşma imzalanıb. Dövlət başçılarının növbəti görüşləri 10 avqust 2008-ci il tarixində Pekində Olimpiya Oyunlarının açılış mərasimi zamanı və 30 yanvar 2009-cu ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumunda olmuşdur. 2009-cu ilin may ayında paytaxt Təl-Əvivdə qarşılıqlı münasibətlərin tarixində ilk dəfə olaraq Azərbaycan-İsrail Biznes Forumu keçirilib. 28-29 iyun 2009-cu ildə Azərbaycan-İsrail münasibətləri tarixində ilk dəfə olaraq İsrail prezidenti 3 nazir və 50 nəfər iş adamı ilə birgə Azərbaycana rəsmi səfərə gəlib. İsrail Prezidenti Şimon Peresin səfəri zamanı Azərbaycan və İsrail prezidentlərinin iştirakı ilə iki müqavilə imzalanıb. Bu sənədlərdən biri kommunikasiya sahəsində əməkdaşlığı, digəri isə təhsil, elm və texnologiya sahəsində əməkdaşlığı nəzərdə tutur. 29 iyun 2009-cu ildə Bakıda Azərbaycan-İsrail biznes-forumu keçirilib. Forumda İsrail

tərəfindən 6 şirkət və həmçinin hər iki ölkənin prezidentləri iştirak edib. 7-8 iyul 2009-cu ildə Bakıda İsrail-Azərbaycan Tikinti Forumu keçirilib. Forumda 6 İsrail şirkəti iştirak edib. 2010-cu il 15 fevral tarixində İsrailin Baş naziri Ehud Olmert ölkəmizə səfər edib.Prezident İlham Əliyev İsveçrədə keçirilən Davos İqtisadi Forumu çərçivəsində İsrail Dövlətinin nümayəndələri ilə bir neçə dəfə görüş keçirib. Dövlət başçısı 2014-cü il 22 yanvar, 2016-cı il 21 yanvar, 2018-ci il 24 yanvar tarixlərində İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə, 2015-ci ilin 22 yanvarında isə İsrail Dövlətinin keçmiş Prezidenti cənab Şimon Peres ilə Davosda görüşüb. 2016-cı ilin 13 dekabrında İsrailin Baş naziri Benyamin Netanyahunun Azərbaycana səfəri Azərbaycan-İsrail qarşılıqlı münasibətlərinin daha da möhkəmlənməsi üçün çox uğurlu olub. Səfər çərçivəsində "Azərbaycan Respublikasının hökuməti ilə İsrail Dövlətinin hökuməti arasında standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi və meteorologiya sahələrində əməkdaşlıq haqqında" saziş, "Azərbaycan Respublikasının hökuməti ilə İsrail Dövlətinin hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında" saziş, "Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" konvensiya, "Azərbaycan Respublikasının hökuməti ilə İsrail Dövlətinin hökuməti arasında Birgə Komissiyanın yaradılması haqqında" anlaşma memorandumu imzalanıb. Benyamin Netanyahunun 1997-ci ilin avqustunda Bakıda olmasına baxmayaraq, İsrail baş nazirinin 2016-cı il dekabrın 8-də olan səfəri İsrail ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 25 illik tarixində İsrail hökuməti başçısının Azərbaycana ilk rəsmi səfəri idi. İsrailin Baş naziri ilə Azərbaycan Prezidenti arasında Bakıda keçirilən bu görüş iki ölkə arasında siyasi dialoqun ən yüksək səviyyədə olduğunu, iqtisadi komponentin və ticarət dövriyyəsinin durmadan artdığını bir daha təsdiqlədi. Əgər əvvəllər bu dövriyyə neft-qaz sənayesinə yönəlmişdisə, hazırda bu əlaqələrin inkişafı iqtisadiyyatın digər sahələrini də əhatə etməklə şaxələnir [5] . Prezident İlham Əliyevin qeyd olunan illərdə İsrail Dövlətinin baş naziri və prezidenti ilə həyata keçiridiyi vacib görüşlər və diplomatik əlaqələrin qurulmasının 25 illik tarixində İsrail hökümət başçısının Azərbaycanda ilk rəsmi səfərdə olması iki dövlətin münasibətlərinin inkişafının yüksək səviyyədə olmasını aydın şəkildə göstərir.

2016-cı ildə Azərbaycan Respublikasının İsrail Dövləti ilə ticarət dövriyyəsinin həcmi 679,74 mln. ABŞ dolları olub. Növbəti illərdə İsrail Dövləti ilə Azərbaycan Respublikası arasında ticarət dövriyyəsi aşağıdakı kimi olub: 2017-ci ildə - 671 612,3 min, 2018-ci ildə - 1 334 729,83 min, 2019-cu ildə - 1 375 302,46 min ABŞ dolları olmuşdur. İsrail Azərbaycan neftinin ən iri alıcılarından biridir. 2019-cu ilin yanvar-sentyabr aylarının yekunları üzrə hesabatda Azərbaycanın neft ixrac etdiyi ölkələr siyahısında İsrail ikinci yerdə qərarlaşıb. O, neftə olan tələbatının mühüm hissəsini Azərbaycan nefti hesabına ödəyir. İsrail həmçinin Azərbaycandan böyük həcmdə neft məhsulları idxal edir. 2020-ci ilin yanvar-mart ayları üzrə isə İsrail Dövləti və Azərbaycan Respublikası arasında ticarət dövriyyəsi 257 450,21 min ABŞ dolları təşkil edib [5]. İki dövlət arasında olan ticarət dövriyyəsinin həcminin ildən-ilə artması iqtisadi əlaqələrin gücləndiyini bir daha vurğulayır.

30 mart 2022-ci ildə Təl-Əvivdə Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və İsrailin turizm naziri Yoel Razvozov əməkdaşlıq sazişi imzalamış və İsraildə Azərbaycan turizm ofisi açılmışdır [13] . Azərbaycanın ticarət və turizm nümayəndəliyinin açılması ikitərəfli iqtisadi münasibətlərin daha da möhkəmlənməsinə, eyni zamanda turizm əlaqələrinin genişlənməsinə təkan verən amillərdir.

Son illər İsraillə Azərbaycan arasında əlaqələr daha da möhkəmlənib. Hazırda ticarət, sənaye, texnologiya və turizm sahələrində müxtəlif əməkdaşlıq layihələri həyata keçirilir. Ölkələrimiz arasında ticarət mühiti son illər daha da inkişaf edib. 2020-ci ildə Azərbaycan ilə İsrail arasında ticarət dövriyyəsi 322 milyon ABŞ dollarına çatıb. Ümumiyyətlə, qarşılıqlı enerji, neft, qaz, elektronika, tibb və turizm sahələrində görülən işlər və inkişaf investisiyaların artmasına səbəb olur. Hər iki ölkə əsas ticarət tərəfdaşları sırasındadır. Bütün iqtisadi və kommersiya əlaqələri imkan verir ki, Azərbaycan və İsrail bir-birinin potensialından layiqincə yarar-

lansın. Yüksək səviyyədə qurulan əlaqələrin təminatı azad ticarət-iqtisadi münasibətlərdir. İsrail dünyanın ən inkişaf etmiş texnologiya ölkələrindən biridir və Azərbaycan da texnologiyaya böyük önəm verir. Bu mənada, İsrail şirkətləri Azərbaycanın müxtəlif sahələrində texnoloji təcrübələrini qarşılıqlı təqdim edir və öyrədir. 2021-ci ildə Azərbaycan İsrail ilə Hökumət arasında Birgə Komissiyanın həmsədri, iqtisadiyyat naziri Mikayıl Cabbarovun başçılıq etdiyi heyət İsraildə işgüzar səfərdə olub. Bu zaman İsrail rəsmiləri Azərbaycanın Ticarət və Turizm ziyarətlərinin açılmasını yüksək qiymətləndirib. İki ölkə arasında əlaqələrin, işgüzar dairələrin artırılması, biznes-dialoqun perspektivi üçün mühüm platformadır, görüşlərin və icra danışıqlarının aparılmasının gücləndirilməsinə və birgə layihələrə, ticarət, tikinti, kənd təsərrüfatı, bərpaolunan enerji, İKT, kiber təhlükəsizlik, kimi sahələrin inkişafına töhfə verəcəyini vurğulayıblar. 2023-cü ildə İsrailin neftə olan tələbatının 40 faizi ölkəmiz tərəfindən təmin edilir. Həmçinin İsrailin Eylat-Aşkelon boru-kəmərinin enerji resurslarının Cənubi Asiya və Uzaq Şərq bazarlarına çıxışına imkan yaranıb. Azərbaycanın iqtisadi sahələrinin inkişafında, sənayenin nizamlanmasında və azad iqtisadiyyatın idarəsində İsrail şirkətləri əsas rol oynayır. Buna əsasən, İsrail enerji tələbatının 30 %-ə qədərini ödəmək imkanı qazanır [11]. Göründüyü kimi qarşılıqlı iqtisadi maraqların olması, bu sahədə əlaqələrin inkişaf etdirilməsini labüd edir.

Dünyanın ən dayanıqlı və texnologiya cəhətdən inkişaf etmiş bazar iqtisadiyyatlarından biri olan İsrailin ixtisaslaşmış işçi qüvvəsi və Vençur (Müəssisə) kapitalı üzrə təmərküzləşməsi ölkəyə yüksək texnologiyalar, təmiz texnologiya və həyat elmləri kimi innovativ sənayelərdə liderlik etməyə imkan verir [14].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il aprelin 5-də İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirərək İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və Turizm Mərkəzinin açılmasının önəmini vurğuladı. Prezident İlham Əliyev həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirdi. İqtisadi sferada əlaqələrə toxunan dövlətimizin başçısı energetika sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd etdi, Azərbaycanın İsrailin mühüm neft təchizatçılarından biri olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanda bərpaolunan enerjiyə artıq fəal şəkildə sərmayə qoyulduğunu bildirərək, İsrail şirkətlərinin də ölkəmizdə bu sahəyə maraq göstərdiyini qeyd etdi və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı İsrail şirkətlərinin yüksək texnologiyalar sahəsində təcrübəsini qeyd edərək, bu istiqamətdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırdı. Yoel Razvozov İsrail şirkətlərinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, ağıllı şəhər, energetika, su təchizatı və digər sahələrdə iştirak etməkdə də maraqlı olduqlarını dedi [6]. Keçirilmiş yüksək səviyyəli bu görüş bir daha hər iki tərəfin qarçılıqlı faydalı əməkdaşlığa önəm verdiyinin, əlaqələrin daha da genişləndiyinin bir sübutudur.

19 aprel 2023-cü ildə Bakıda Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın 3-cü iclası (Birgə Komissiyanın ilk iclası 2018-ci ilin 15 may tarixində Qüds şəhərində olmuşdur) keçirilib. Azərbaycan-İsrail Birgə Komissiyasının 19 aprel 2023-cü ildə keçirilmiş 3-cü iclasında İsraillə investisiya, innovasiyalar, ekologiya, informasiya, su, enerji, kənd təsərrüfatı, qida texnologiyaları sənayesi, əczaçılıq və biotexnologiya, ərzaq təhlükəsizliyi, kibertəhlükəsizlik, turizm, kiçik və orta sahibkarlıq və digər sahələrdə əməkdaşlığı genişləndirilməsi məsələləri müzakirə olunub, bir sıra sənədlər imzalanıb. İclasda çıxış edən iqtisadiyyat naziri, Birgə Komissiyanın həmsədri Mikayıl Cabbarov dostluq və qarşılıqlı etimada əsaslanan Azərbaycan-İsrail əlaqələrinin müxtəlif sahələrdə dinamik inkişafını vurğulayıb. Bildirilib ki, Azərbaycan və İsrail arasında ticarət dövriyyəsində qeyri-neft məhsullarının payı yüksəlir: "Bununla belə, biz

ticarət əlaqələrimizi şaxələndirməliyik, çünki Azərbaycanın qeyri-neft məhsullarının İsrail bazarına ixracı üçün hələ də istifadə olunmamış böyük potensial var". İqtisadiyyat naziri qeyd edib ki, investisiya, innovasiyalar, informasiya, kənd təsərrüfatı, ekologiya, qida, su, enerji texnologiyaları, əczaçılıq və biotexnologiya, ərzaq təhlükəsizliyi, kibertəhlükəsizlik, turizm, kiçik və orta sahibkarlıq və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər var və bu potensialın reallaşdırılması üçün özəl sektor fəallığını artırmalıdır. Bu kontekstdə, biznes dairələri arasında keçirilən işgüzar tədbirlər dialoqun genişlənməsinə əlavə imkanlar yaradır. Azərbaycan ölkələrimiz arasında müasir texnologiyaların transferi sahəsində əməkdaşlıqda maraqlıdır və aidiyyəti qurumlar arasında tərəfdaşlıq birgə təşəbbüslərin reallaşdırılmasına töhfə verə bilər . İqtisadiyyat naziri Azərbaycanda əldə olunan iqtisadi nailiyyətlər barədə də məlumat verib, investorlar üçün yaradılan imkanları diqqətə çatdırıb, İsrail şirkətlərini Ələt Azad İqtisadi Zonasının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından yararlanmağa, birgə layihələrin həyata keçirilməsinə dəvət edib. İsrailin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Kohen xalqlarımız arasında səmimi dostluq münasibətlərini vurğulayaraq, İsraildə Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının əlaqələrimizi yeni inkişaf mərhələsinə yüksəltdiyini qeyd edib. Eli Kohen iki ölkə arasında müxtəlif sahələr üzrə əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb, özəl bölmənin tərəfdaşlığın inkişafı potensialını reallığa çevirdiyini diqqətə çatdırıb. İclasda müxtəlif sahələrdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb. Hökumətlərarası Komissiyanın iclası çərçivəsində əməkdaşlığın genişləndirilməsinə dair bir sıra sənədlər imzalanıb. Tədbirdə həmçinin, Azərbaycan Respublikasının İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə İsrail Dövlətinin Milli Texnoloji İnnovasiya Qurumu arasında texnoloji innovasiyalar sahəsində Birgə Bəyannamə, SOCAR və İsrailin "Union Energy" şirkəti arasında əməkdaşlıq haqqında Saziş, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə İsrail Milli Su Şirkəti – "Mekorot" arasında Anlaşma Memorandumu imzalanıb [4]. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli Sərəncamına əsasən təsis edilən Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya və eləcə də iclas çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair imzalanmış sənədlər Azərbaycan-İsrail əlaqələrinə bir daha öz töhfəsini vermişdir.

2024-cü ilin yanvar ayında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 131 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 72 ölkəyə məhsul ixrac olunmuş, 124 ölkədən idxal olunmuşdur. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ilin yanvar ayında ölkənin xarici ticarət dövriyyəsi 3270,0 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 2127,9 milyon dollarını və ya 65,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 1142,1 milyon dollarını (34,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 985,8 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2023-cü ilin yanvar ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 28,8 faiz, real ifadədə 18,0 faiz, o cümlədən idxal 29,7 faiz, ixrac isə 12,8 faiz azalmışdır. 2024-cü ilin yanvar ayında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni ayı ilə müqayisədə faktiki qiymətlərlə 22,0 faiz, real ifadədə 30,0 faiz azalaraq 222,0 milyon dollar təşkil etmişdir. Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən ölkənin xarici ticarət dövriyyəsinin 16,7 faizi İtaliya, 15,9 faizi Türkiyə, 10,1 faizi İsrail, 8,9 faizi Rusiya, 7,3 faizi Çin, 4,0 faizi Tailand, 3,1 faizi Hindistan, 3,0 faizi Portuqaliya, 2, 6 faizi Tunis, 2,4 faizi Gürcüstan, 2,2 faizi İndoneziya, 2,1 faizi Bolqarıstan, 2,0 faizi Almaniya, 1,7 faizi Belarus, hər biri 1,6 faizi və Yunanıstan, 1,4 faizi ABŞ, 1,3 faizi İran, 1,2 faizi Ukrayna, 1,1 faizi Türkmənistan, 9,8 faizi başqa şirkətlə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür [7]. Statistik göstəricilər Azərbaycan Respublikasının apardığı iqtisadi siyasətin uğurla aparıldığını və bu sahədə qarşılıqlı faydalı əlaqələrin genişlənidiyindən xəbər verir.

16 iyul 2024-cü ildə Azərbaycan və İsrail arasında enerji əməkdaşlığı müzakirə olunmuşdur. Energetika naziri Pərviz Şahbazov ilə İsrailin regional əməkdaşlıq naziri David Amsale-

min rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub. Görüşdə iki ölkə münasibətlərində enerji sahəsində, o cümlədən karbohidrogen sektorunda əməkdaşlıqdan məmnunluq ifadə edilib. Bu xüsusda, neft təchizatı, neft-kimya məhsullarının ticarəti və daunstrim layihələrində uzunillik əməkdaşlıq əlaqələri qeyd edilib, perspektivlər nəzərdən keçirilib. Həmçinin Azərbaycanın hazırda ölkənin enerji balansında bərpa olunan enerjinin payının artırılmasına, bu enerji növünün də regionlararası "yaşıl enerji dəhliz"lərinin yaradılması ilə tədarükünə yönəlmiş layihələrindən danışılıb. "Yaşıl enerji", eləcə də digər perspektivli sahələrdə əlaqələrin inkişafı üçün imkanlar dəyərləndirilib, dövlət-özəl sektorunun bu prosesə cəlbinin əhəmiyyətindən bəhs edilib [3]. İkitərəfli münasibətlərin inkişafı yeni sahələrdə də əməkdaşlığı labüd etmişdir. Dünyada geniş yayılan "yaşıl enerji" təcrübəsi Azərbaycan-İsrail əlaqələrində yeni əməkaşlıq sahəsi olmaqla iki dövlətin iqtisadi əlaqələrinin daha da dərinləşməsində mühüm rol oynayacaq.

1992-2023-cü illərdə iki dövlət arasında olan iqtisadi əlaqələrin inkişafı göstərir ki, 1992-ci ildə iki dövlət arasında ticarət dövriyyəsi 438 min ABŞ dolları olsa da, 2023-cü ildə isə bu rəqəm 1,443,519.7 ABŞ dolları olmuşdur [7]. Sadəcə bu göstəricələrə nəzər salmaq iki dövlət arasında olan iqtisadi əlaqələrin yüksək inkişafından xəbər verir.

İşğalda olan torpaqlarımızın geri qaytarılması üçün Azərbaycan silahlı qüvvələrinin modernləşdirilməsi məsələsi olduqca zəruri idi, müvafiq problemin həll üçün xüsusi proqram həyata keçirildi. Bu proqram çərçivəsində İsrailin hərbi sənayesi Azərbaycan ordusunu müasir hərbi təyyarələr, pilotsuz uçuş aparatları, artilleriya, tank əleyhinə və piyadaya qarşı silahlarla təchiz etdi. Azərbaycanın 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanmasında mühüm rol oynayan İsrail istehsalı pilotsuz uçuş aparatı olan Harop dronlarının və digər müasir hərbi texnikanın alınması və hərbiyə çəkilən xərclərin daha da artırılması Azərbayacanın İsraillə uğurlu iqtisadi siyasət aparmasından və əlaqələrin gələcək inkişafından xəbər verir. İkinci Qarabağ müharibəsində İsrailin Azərbaycanı iqtisadi və siyasi sahələrdə dəstəkləməsi və 2023-cü ildə Azərbaycan-İsrail diplomatik əlaqələrində əlamətdar hadisə olan Azərbaycan Respublikasının İsraildə səfirliyinin təsis olunması iki dövlət arasında iqtisadi sahədə əlaqələrin inkişafında yeni mərhələ olmuşdur. Dərin tarixi-mədəni köklərə malik olan bu iki dost dövlətin həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə olan əlaqələri günbəgün inkişaf edir.

## Ədəbiyyat siyahısı

1. Aslanov, A. Azərbaycan və İsrail arasında faydalı ola bilər: [Elektron resurs] / - Bakı, 1993. - URL: https://azertag.az/xeber/
2. Azərbaycan beynəlxalq aləmdə: [Elektron resurs] /- URL: https://files.preslib.az/projects/azerbaijan/gl9.pdf
3. Azərbaycan İsrail enerji təchizatı müzakirə olunub: [Elektron resurs] / - 16.07.2024. – URL: https://minenergy.gov.az/az/xeberler-arxivi/00311
4. Azərbaycan-İsrail Hökumət Şurasının iclası keçirilib: [Elektron resurs] /- 19 aprel 2023. – URL: https://www.economy.gov.az/az/post/1342/azerbaycan-israil-hokumetlerarasi
5. Azərbaycan - İsrail münasibətləri: [Elektron resurs] / - may 2020. – URL: https://lib.aliyevheritage.org/az/8269149.html
6. Birgə Komissiyanın həmsədri, Turizm naziri Yoal Razvozovu qəbul edib: [Elektron resurs] / - 05 aprel 2022.- URL :- https://president.az/az/articles/view/55722
7. Xarici ticarət əlaqəsi : [Elektron resurs] / - URL: https://www.stat.gov.az/news/source/PRESS_2024_01_xt.pdf
8. Qasımlı, M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) / M.Qasımlı. – Bakı: Mütərcim, – 2015. – 660 s.
9. Qasımov (Qasımlı) M.C. Beynəlxalq münasibətlər tarixi (XX əsr II hissə). Dərslik. /M.C.Qasımlı, M.İ.Abdullayev – Bakı: Bakı Universiteti nəşriyyatı, - 1999. - 450 s.
10. Məmmədova, N. Azərbaycan İsrail ilə əlaqədə zamanın qovşağında // Xalq qəzeti. – 2017, 25 yanvar. - s.6.
11. Məmmədova, T.Azərbaycan İsrail münasibətləri: [Elektron resurs] / -07 İyun,

2023.- URL: https://respublika-news.az/az/news/azerbaycan-israil-munasibetleri
12. Gut A. Azerbaijan-İsraeli relations: sincere friendship of peoples and strategic partnership of countries: [Electronic resource] / 1, Winter, 2020. – URL: https://www.irs-az.com/sites/default/files/2020-12/49_0.pdf
13. Israel-Azerbaijan bilateral relations: [Electronic resource] / 15.08.2024.- URL:https://new.embassies.gov.il/azerbaijan/en/the-embassy/bilateral-relations
14. The İsraeli economy today: [Electronic resource] / - URL: https://embassies.gov.il/san-francisco/AboutIsrael/Economy/Pages/The-Israeli-Economy-Today.aspx

## Резюме

**Айнур Керимли**

### Отношения между Азербайджанской Республикой и Государством Израиль в экономическом контексте

В статье речь идет о создании и развитии экономических отношений между Азербайджанской Республикой и Государством Израиль. Эти два государства, имеющие глубокие исторические и культурные связи, с 1992 года заложили основу взаимовыгодного сотрудничества, установив дипломатические отношения. Взаимные официальные и деловые визиты глав государств и правительств имеют особое историческое значение в развитии и расширении экономических связей между двумя государствами. В настоящее время реализуются различные проекты в сфере торговли, промышленности, технологий и туризма. Особый импульс развитию отношений придало открытие в 2023 году посольства Азербайджана в Израиле. Отношения между Азербайджаном и Израилем день ото дня развиваются в политической, экономической и других сферах.

***Ключевые слова**: Азербайджан, Израиль, товарооборот, нефть, поездка*

## Summary

**Aynur Karimli**

### Relations between the Republic of Azerbaijan and the State of Israel in the economic context

The article deals with the establishment and development of economic relations between the Republic of Azerbaijan and the State of Israel. These two countries, which have deep historical and cultural relations, have laid the foundation of mutually beneficial cooperation since 1992 by establishing diplomatic relations. The mutual official and business visits of the heads of state and government have a special historical significance in the development and expansion of economic relations between the two states. Currently, various projects are being implemented in the field of trade, industry, technology and tourism. The opening of Azerbaijan's embassy in Israel in 2023 gave a special impetus to the development of relations. Relations between Azerbaijan and Israel are increasing day by day in political, economic and other fields.

***Keywords**: Azerbaijan, Israel, trade turnover, oil, trip*